Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**



# Azıxın böyük tədqiqat tarixi - ermənilərin saxtakarlıq cinayətlərinə tutarlı cavab...

**Qədim insan yaşayış sivilizasiyasının ilk beşiklərindən olan Azıx mağarası Ermənistanın işğalı altında olduğu illərdə dünyada analoqu olmayan saxtalaşdırılmaya məruz qoyulub. Ermənilər Azərbaycanın vaxtilə işğal altında saxladıqları Xocavənd rayonu ərazisində yerləşən Azıx mağarasında həyata keçirdikləri qanunsuz arxeoloji qazıntılara, saxtalaşdırma işlərinə xarici mütəxəssisləri də cəlb ediblər.**

**II yazı**

Burada rəsmi Bakının icazəsi olmadan həyata keçirilən qanunsuz arxeoloji qazıntı işlərində müxtəlif ölkələrin mütəxəssisləri yaxından iştirak ediblər. Zaman-zaman bu qanunsuzluqları əks etdirən videolar və fotolar KİV-də yer alsa da, beynəlxalq təşkilatlar bunu susqunluqla müşahidə ediblər. Ermənistan tərəf Azıx mağarasına qanunsuz ekspedisiya təşkil etməklə burada saysız qanunsuzluq, cinayət törədib. Maraqlı ölkələrin, başlıcası isə xaricdəki erməni lobbisinin maliyyə dəstəyilə bu əraziyə cəlb edilən beynəlxalq muzdlu arxeoloqlar qrupunun köməyilə ermənilər Azıx mağarasının altını üstünə çeviriblər və burada kifayət qədər saxtalaşdırma işləri həyata keçiriblər.

### İngiltərə, İrlandiya və İspaniya alimləri Azıxda nə axtarırdılar?

Hazırda işğaldan azad edilən Azıx mağarasında vaxtilə ermənilərin həyata keçirdikləri qanunsuz qazıntı işlərində fəallıq göstərən beynəlxalq arxeoloqlar qrupuna Ermənistanla yanaşı, İngiltərə, İrlandiya və İspaniya alimlərinin daxil olduqları faktdır. Mütəxəssislər deyirlər ki, işğal dövründə Azıxda arxeoloji qazıntı cinayətləri edən beynəlxalq tədqiqatçılar qrupuna İspaniyanın Madrid şəhərində yerləşən Təbiət Elmləri Milli Muzeyinin əməkdaşı Yolanda Fernandez-Jalvo və Ermənistan Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutunun əməkdaşı Levon Yepiskopyan başçılıq ediblər.

Ekspertlərin bildirdiklərinə görə, sözügedən cinayətkar arxeoloji qrupun təşkil edilməsində Ermənistanın hərbi-siyasi xuntasının xüsusi rolu olub. Məsələ burasındadır ki, Ermənistan rəhbərliyi bu cinayətə yalnız əcnəbi alimləri cəlb etməyib, həmçinin də bura xarici elm ocaqlarında təhsil alan aspirantlar, dissertantlar və eyni zamanda, jurnalistləri də cəlb ediblər, onlar da bu qanunsuzluğun alətinə çevriliblər.

Qanunsuz ekspedisiyalar Azıxda öz çirkin əməllərini davam etdirdikləri vaxtlarda onlar buradan əldə etdiklərini mənimsəyiblər. Məlumatlara görə, muzdlu ekspedisiya qrupu Azıx mağarasındakı son qazıntılar nəticəsində dünya elminə gərəkli olan çoxlu qiymətli material aşkar edib və bu tapıntıların dünyaya "erməni maddi tarixi-mədəniyyət nümunələri" kimi təqdim edilməsində aktiv iştirak ediblər.

Ekspertlər qeyd edirlər ki, işğaldan azad edilən Füzuli şəhərindən 16 km aralıda yerləşən, Quruçay sahilindəki məşhur Azıx mağarası ibtidai insanların yaşayışını, məişətini və dünyagörüşünü tədqiq etmək baxımından həmişə alimlər üçün böyük maraq kəsb edib və erməni alimləri də hər zaman Azıxa maraq göstəriblər, məqsəd də bu unikal abidəni mənimsəmək, ermənilərin burada "yerli toplum" olduğunu sübut etməkdir.

Vaxtilə Qarabağdakı separatçı rejimin nəzarəti altında olan Azıx mağarasında qanunsuz tədqiqat işləri 1999-cu ildən başlayaraq, təxminən 2017-ci ilə qədər davam edib. 300-350 min il bundan əvvəl yaşamış insanların izləri, alətləri və qədim heyvanların aşkar olunmuş sümüklərinin ekspedisiyanın sonunda Ermənistan və Qərb ölkələrinin muzeylərinə göndərildiyi də məlumdur.

Ekspertlər hesab edirlər ki, xarici ekspedisiya qrupu Azıxda öz marağı naminə qanunsuz arxeoloji qazıntılar aparmayıb, o, bu cinayətə xüsusi ödəniş müqabilində cəlb edilib. Yeni arxeoloqlar pullarını alıb və ermənilərin çirkin niyyətlərinə, saxtalaşdırma əməllərinə alət olublar. Bu qanunsuz arxeoloji qrupu Azıxa cəlb edənlərin məqsədi, qeyd edildiyi kimi, Azıxı "erməni abidəsi" kimi qələmə vermək olub və bu işi davam etdiriblər.

### 2009-cu ildə Azıx mağarasında aparılan qanunsuz arxeoloji qazıntılar...

Alimlərin qeyd etdiklərinə görə, Ermənistanın 2001-ci ildən başlayaraq Azıx mağarasında həyata keçirdiyi qanunsuz qazıntılara İngiltərə, İspaniya, İrlandiya və başqa ölkələrin alimlərindən ibarət muzdlu beynəlxalq tədqiqatçılar qrupunu cəlb etməsi cinayətləri artıq bütün dünyada ifşa edilib. Xüsusən də İspaniyanın Madrid şəhərində yerləşən Təbiət Elmləri Milli Muzeyinin əməkdaşı Yolanda Fernandez-Jalvonun bu qanunsuzluqda cani-dildən iştirakı onun nüfuzuna da ciddi zərbə vurub. Əlbəttə, dünyada beləleri qara arxeologiyanın ilhamvericisi kimi tanınır və qəbul edilirlər.

Ermənistan Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutunun əməkdaşı Levon Yepiskopyanın başçılığı altında tədqiqat işlərinin aparılmasına xarici mütəxəssislərin qoşulması onu göstərir ki, bu arxeoloji qruplar mafioz erməni qruplaşmalarının əlində oyuncaq olub və arxeoloji materialların qaçaqmalçılığında yaxından iştirak ediblər.

Qanunsuz tədqiqatlar zamanı 300 min il yaşı olan, Avropada ən qədim mağara ayısının sümüyü, daş əmək alətləri və istehsal tullantıları aşkarlanıb. Qazıntılar ildə bir ay olmaqla doqquz il davam edib və əldə edilmiş bütün maddi mədəniyyət nümunələri tədqiq olunmaq üçün Londona aparılıb. Qanunsuz tədqiqatların nəticəsi olaraq 2010-cu ildə Azıx mağarası haqqında məqalələr toplusu nəşr edilib.

### "Azıxda aparılan arxeoloji qazıntılar zamanı tapılmış 100 minlərlə maddi mədəniyyət qalığı Bakıda saxlanır"

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun 6 cildlik "Azərbaycan Arxeologiyası" nəşrinin I cildində qeyd edilir ki, Azərbaycan alimlərinin Azıx paleolit düşərgəsində apardıqları uzunmüddətli arxeoloji qazıntılar nəticəsində oradakı mədəni təbəqələrin 80%-i tədqiq olunmuşdur, ermənilərin Azıxda apardıqları arxeoloji qazıntılar cinayətdir. Burada nəinki qazıntı, eyni zamanda, kəşfiyyat işləri aparmaq bəşəriyyətə qarşı ən böyük cinayət kimi qiymətləndirilməlidir: "Bəlkə 100 ildən sonra yeni elmi tədqiqat metodu meydana çıxa bilər, onda Azıx düşərgəsinin çöküntülərindən nümunə götürüb istifadə oluna bilər. Ona görə də hazırda orada qazıntı işləri aparmaq bəşər sivilizasiyasına qarşı ən böyük təxribat hesab olunmalıdır. İkincisi isə Azıxda aparılan arxeoloji qazıntılar zamanı tapılmış 100 minlərlə maddi mədəniyyət qalığı Bakıda saxlanır və istənilən alim onlarla tanış ola bilər".

### Ermənistan və bu prosesdə iştirak edən ölkələr, qurumlar beynəlxalq məhkəməyə verilsin...

Sözsüz ki, Azərbaycan beynəlxalq məhkəmədə Azıxda qanunsuz qazıntılar aparan muzdlu beynəlxalq ekspedisiyaya qarşı da xüsusi iddia qaldıra bilər. Çünki qanunsuz qazıntı cinayətlərində iştirak edənlərin adı da, ünvanı da bəllidir. Ekspertlər qeyd edirlər ki, bu gün Azərbaycanın tam haqqı var, torpaqlarımız işğaldan azad edildikdən sonra müvafiq beynəlxalq elmi komissiya yaradılsın, Azıx mağarasına, digər abidələrimizə vurulmuş maddi və mənəvi ziyan müəyyən edilsin, buna görə Ermənistan dövləti və bu prosesdə iştirak edən ölkə, eyni zamanda, qurumlar beynəlxalq məhkəməyə verilsin, abidələrdən aparılmış eksponatların və ya nümunələrin geri qaytarılması tələb və təmin edilsin.

### Azıx mağarasının öyrənilməsi ilə bağlı həyata keçirilən "İNTAS-2000" proqramı...

Məlum olduğu kimi, Azıx mağarasının öyrənilməsi ilə bağlı həyata keçirilən "İNTAS-2000" proqramından danışan tarixçi vurğuladı ki, Azərbaycanın daş dövrü düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqlarının bəşər sivilizasiyasının tarixini tədqiq etmək üçün əvəzsiz arxeoloji mənbələr olduğunu əsas tutan Fransa, İtaliya, İspaniya, Rusiya, Azərbaycan və Gürcüstan alimləri 2001-ci ildə Beynəlxalq "İNTAS-2000" adlı proqram hazırlayıblar. O qeyd etdi ki, həmin proqram 2001-ci ilin iyul ayında Fransanın Totavel şəhərində keçirilən beynəlxalq elmi konfransda təsdiq olunub.

Həmin proqrama uyğun olaraq, professor Əsədulla Cəfərovun Fransanın İnsan Paleoantologiya İnstitutu və Avropa Arxeoloji Tədqiqatlar Mərkəzində Azərbaycanın paleolit düşərgələrinin maddi mədəniyyət qalıqları haqqında elmi məruzələrlə çıxış etdiyi məlumdur.

Məruzələrdə Azıx, Tağlar və digər paleolit düşərgələrinin arxeoloji və paleoantoloji tapıntıları şərh edilmiş, azıxantropun çənə sümüyünün qalığının isə Qafqaz və Yaxın Şərqdə ən qədim paleoantropoloji tapıntı olduğu bildirilmişdir.

2002-ci il sentyabrın 7-dən oktyabrın 1-dək Beynəlxalq İNTAS-2000 proqramına uyğun olaraq, Avropa ölkələrindən 22 görkəmli alim başda professor Henri dö Lümley (fr. Henry de Lumley) olmaqla Bakıya gəlib çoxtəbəqəli Azıx, Tağlar, Qazma və digər düşərgələrdən tapılmış maddi mədəniyyət qalıqları ilə tanış olmuş və bu tapıntıların dünya arxeologiya, paleontologiya və paleoantropologiya elmləri üçün müstəsna elmi əhəmiyyəti olduğunu yekdilliklə qeyd etmişlər.

Bütün faktlar Ermənistanın və ona havadarlıq edənlərin, bu qanunsuzluqların, cinayətlərin birbaşa iştirakçısına çevirilənlərin tarixdə üz qarası olan əməllərinin ifşa edilməsinə böyük şərait yaradıb. İNTAS proqramı, eləcə də Azərbaycan, digər ölkələrin alimlərinin Azıxla bağlı apardıqları tədqiqatlar, əldə etdikləri nəticələr ermənilərə və ermənipərəst qüvvələrə tarixi bir cavabdır. Əlbəttə, bütün bunlar yetərlidir ki, Ermənistan və onun cinayətinə şərik olanlar beynəlxalq məhkəmə qarşısında cavab versinlər.

Davamı olacaq.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**